

# Pulmonoloq Günay Əliyeva: Pnevmoniya xəstəliyinin müayinə və müalicəsi icbari tibbi sığorta ilə qarşılanır

**Hər il noyabrın 12-də Ümumdünya Pnevmoniyaya qarşı Mübarizə Günü qeyd edilir. Pnevmoniya ilə bağlı məlumatlılığın əhəmiyyətini nəzərə alaraq, vətəndaşlara bu mövzuda ətraflı informasiya təqdim etmək üçün mütəxəssisə müraciət etdik. Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun pulmonoloqu Günay Əliyeva xəstəliyin müayinə və müalicəsi, həmçinin profilaktikası ilə bağlı bir sıra vacib suallara aydınlıq gətirib. Müsahibəni sizə təqdim edirik.**

**Günay xanım, ilk olaraq istərdik oxucularımıza pnevmoniya xəstəliyi haqqında məlumat verək. Pnevmoniya nədir?**

- Pnevmoniya (agciyərlərin iltihabı) - kəskin infeksion xəstəlikdir. El arasında daha çox sətəlcəm adı ilə tanınır. Pnevmoniya ağciyərlərin hava kisəciklərinin (alveolalarının) maye və ya irinlə dolmasına səbəb olan ağciyərlərin bir və ya ikitərəfli bakterial, viral (virus mənşəli) və ya göbələk infeksiyasıdır.

**Kimlərin pnevmoniyaya tutulma riski daha yüksəkdir?**

- Pnevmoniya bütün yaş qruplarında təsadüf edilən xəstəlikdir. Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarına əsasən, 2 yaşdan kiçik uşaqlar, 65 yaşdan yuxarı olan şəxslər və siqaret, spirtli içki qəbul edən şəxslər risk qrupuna daxildir. Bundan əlavə, demək lazımdır ki, ürək, ağciyər və xroniki xəstəlikləri olan, transplantasiya əməliyyatı keçirmiş və ya müxtəlif səbəblərdən qaynaqlanan immun çatışmazlığından əziyyət çəkən xəstələrdə pnevmoniya daha tez-tez baş verir və daha ağır klinik gedişata malik olur.

**Pnevmoniya xəstəliyi özünü hansı simptomlarla büruzə verir?**

- Kəskin klinik gedişatı olan pnevmoniya zamanı yüksək hərarət 38-39 dərəcə, üşütmə, öskürək, bəlğəm ifrazı (yaşıl, sarı, pas rəngli), kürək ağrıları müşahidə edilir. Bəzən pnevmoniya atipik (xəstəliyə səciyyəvi olmayan) bir gedişata malik olur, bu halda əsas simptomlar iştahasızlıq, əzələ və oynaq ağrıları, ürəkbulanma, sonra isə hərarət və quru öskürək olur.

**Xəstəliyin diaqnostikası üçün nə tələb olunur?**

- Pnevmoniya diaqnozunun qoyulması üçün detallı anamnezin toplanması, fiziki müayinə və auskultasiyanın (ağciyərlərin səsini dinləmək) aparılması zəruridir. Kliniki müayinədən əlavə, laborator-instrumental müayinələrin aparılması diaqnozun qoyulmasında köməklik göstərir. Bu halda ağciyərin rentgen müayinəsi, qan analizləri (qanın ümumi analizi, iltihab parametrləri), mikroskopiya və bəlğəmin əkilməsi, lazım olduqda, kompüter tomoqrafiyası müayinəsi aparılmalıdır.

**Xəstəlik müalicəsiz qalarsa, ağırlaşması nə ola bilər? Hansı hallarda xəstəlik ölümlə nəticələnə bilər?**

- Xəstəliyin vaxtında diaqnozu qoyulmasa və müalicəsi aparılmasa, həyat üçün təhlükə yaradan ağırlaşmalara səbəb ola bilər.

Bir abses, plevrit, üzvi pnevmoniya, pnevmotoraks, iltihab bədənə yayılarsa, tənəffüs çatışmazlığı, meningit, böyrək çatışmazlığı, sepsis, kəskin respirator distress sindromuna və digər həyatla uzlaşmayan nəticələrə səbəb ola bilər.

**Bəzən pnevmoniyanın müalicəsi üçün insanlar özbaşına antibiotik qəbul edirlər. Yeri gəlmişkən, 18-24 noyabr Ümumdünya antibiotiklərlə bağlı maarifləndirmə həftəsidir. Antibiotiklərdən düzgün necə istifadə olunmalıdır?**

- Ümumdünya antibiotiklərlə bağlı maarifləndirmə həftəsinin keçirilməsində məqsəd antibiotiklərdən düzgün istifadə ilə bağlı əhalini məlumatlandırmaqdır. Antibiotik terapiyası çox ciddi və əhəmiyyətli bir müalicə üsuludur. İndiki zamanda antibiotiklərin düzgün istifadə edilməsi gələcəyimizə təsir göstərir. Qeyri-adekvat, yəni yanlış və səmərəsiz antibiotiklərin istifadəsi mikrobların dərmana davamlı ştammlarının yaradılmasına gətirib çıxarır. Bu da nəticədə, yoluxucu xəstəliklərdən ölüm nisbətinin artırılmasına səbəb ola bilər. Pnevmoniya xəstəliyi zamanı antibiotiklərin düzgün seçimi xəstəliyin ağırlaşmasının qarşısını alır. Xəstəliyin ağırlıq dərəcəsini və yanaşı xəstəlikləri nəzərə alaraq ilkin mərhələdə antibiotik empirik olaraq seçilir, lakin daha sonra törədiciyə uyğun antibiotik istifadəsi zəruridir. Antibiotikin verilmə qaydası, dozanın təyini müalicə həkimi tərəfindən protokollara uyğun olaraq təyin edilməlidir.

**Məlumunuzdur ki, ölkədə icbari tibbi sığorta tətbiq olunur. Maraqlıdır, icbari tibbi sığorta bu xəstəliyin müayinə və müalicəsi ilə bağlı hansı tibbi xidmətləri qarşılayır?**

- Bu gün ölkəmizdə icbari tibbi sığortanın fəaliyyət göstərməsi sayəsində xəstələrin həkimə gəlməsi, vaxtında müayinədən keçməsi və müalicəyə başlaması xeyli asanlaşıb. Pnevmoniya xəstəliyinin müayinəsi (həkim konsultasiyası, rentgenoqrafiya, qan analizləri, kompüter tomoqrafiyası), xəstələrin xəstəxanaya yerləşdirilməsi və pnevmoniyanın kəskinləşməsinin müalicəsi Xidmətlər Zərfinə daxildir və tam şəkildə sığortaolunanlar üçün icbari tibbi sığorta çərçivəsində həyata keçirilir.

**Pnevmoniya diaqnozu qoyulmuş xəstələrə məsləhətləriniz nədir?**

- Pnevmoniya diaqnozu qoyulan insanlara məsləhətim odur ki, yoluxucu xəstəlik olduğu üçün yüngül formada olan xəstələr evdə təcrid olunmalıdır. İstirahət və qidalanmaya diqqət yetirmək məsləhətdir. Orta və ağır pnevmoniya ilə xəstələrin stasionar müalicəsi tövsiyə olunur. Pnevmoniya xəstələri bol maye qəbul etməli, meyvə şirələrinə üstünlük verməlidir. B qrup vitaminləri ilə zəngin qidalar, əsasən dənli bitkilər, temperaturu nəzarət altında saxlamağa kömək edəcək və həmçinin seleniumla zəngin olduqları üçün antioksidant təsir göstərəcək. Zülalla zəngin qidalara üstünlük verilməlidir. Bu məhsullar zədələnmiş toxumaların bərpasını sürətləndirir. Portağal, kivi, naringi C vitamini ilə zəngindir. Qatıq sətəlcəm xəstələri üçün faydalıdır, tərkibindəki probiotiklər bağırsaq florasını bərpa etməyə və immun sistemini gücləndirməyə imkan verir.

**Pnevmoniya xəstəliyinə yoluxmamaq üçün hansı tədbirlər alınmalıdır?**

- Pnevmoniya infeksion xəstəliklər qrupuna aiddir, digər infeksion xəstəliklər kimi özünüzü qorumağın ən təhlükəsiz yolu vaxtında peyvənd olunmaqdır. Təbii ki, risk qrupunda olanlara, yəni ciddi xroniki xəstəliklərdən əziyyət çəkən, yaşı 65-dən yuxarı olan, transplantasiya olunmuş xəstələrə peyvəndin vurulması məsləhətdir. Nümunələrə pnevmokok peyvəndi, qrip peyvəndi və koronavirus peyvəndi daxildir. Həmçinin infeksion xəstəliklər üzrə profilaktik tədbirlər görmək, şəxsi gigiyena qaydalarına əməl etmək, xəstə insanlarla məsafə saxlamaq məsləhət görülür.

**COVID-19 və pnevmoniya – koronavirusa yoluxduqda pnevmoniya ilə bağlı nələri bilmək vacibdir?**

- Son illər dünyada pnevmoniyanın ən çox yayılmasına səbəb kimi koronavirus infeksiyası qeyd olunur. Müxtəlif ştammların pnevmoniyaya səbəb olma qabiliyyəti fərqli olur. Ağırlaşma halları sayının isə yüksək olduğu qeyd edilir. Bu səbəbdən pnevmoniya atipik klinik gedişata malik olsa belə, xəstəliyin ağırlaşmasının qarşısını almaq üçün nəzərdə tutulan müvafiq tədbirlər vaxtında görülməlidir. Özünü təcrid etmək, bol maye içmək, müayinədən keçmək və vaxtında müalicəyə başlamaq vacibdir.